


# Bir cənublu fırçasının möcüzələri



> Əməkdar rəssam Əşrəf Heybətov – olduqca maraqlı insandır. Gözəl sərgiləri ilə Almaniya, Rusiya və Avropanın bir çox ölkələrində də tanınır. O, monumental sənət ustası kimi də məşhurdur.

Özünəməxsus yaradıcılığında qədim Şərq üslubu ilə müasir Qərb plastikasını üzvi surətdə tamamlayan Əşrəf Heybətovun adı realist, romantik sənətkarlar arasında da çəkilir. Onun rəngkarlıq əsərləri də, dəqiq ifadəli qrafikası da təsviri sənət sərraflarının diqqətini eyni dərəcədə cəlb edir. Əksər əsərləri əbədi həqiqət axtarışında olan insan qəlbinin təcəssümü kimi canlanan rəssam hər cizgini hər rəngi sənətin ecazkar ümumbəşəri dilində "danışdıra" bilir.

Əşrəf Heybətov siyasət və mədəniyyətə bir quşun iki qanadı kimi baxır: *"Mən çalışıram ki, bu qanadları hər zaman vəhdətdə sərgiləyə bilim. Məsələn, həssas tamaşaçı mənim sərgilərimdə həmişə Azərbaycan bayrağı, Qarabağ münaqişəsi ilə bağlı kitablarla bahəm, Azərbaycan musiqisi də eşidə bilər. Bəli, xaricdə yaşayan mədəniyyət adamları Azərbaycanın imicini hərətəfli yaratmağa borcludurlar"*.





# Canım Bakıda, bədənim Berlində, fikrim Moskvada...

Əşrəf müəllim deyir ki, artıq neçə illərdir Bakı-Moskva-Berlin üçbucağında yaşayır... Canım Bakı, Vətənim Moskva, Berlin isə işimlə əlaqədar yaşamağa məcbur olduğum şəhər... Əslində, bütün əsərlərimdə Azərbaycan var: bəzən natural-real bir cizgi olmasa da vətən ruhu mutləq olur!

1991-ci ildən YUNESCO Rəssamlar Federasiyasının üzvü, Avropada Azərbaycan Mədəniyyət Xadimləri Assosiasiyasının sədri, Beynəlxalq "Sülh səfiri", Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvü, Rusiya Rəssamlar İttifaqının və Şərqşünaslıq Cəmiyyətinin, Azərbaycan-Almaniya Dostluq Cəmiyyəti idarə heyətinin üzvü, daha neçə-neçə qurumda təmsil olunan rəssam bəşəriyyətin taleyinə, yer üzündə sülhün və əmin-amanlığın qorunub saxlanmasına biganə qalmayan insandır.

Onun terrorizmi lənətləyən "Nyu-York - 11 sentyabr" adlı əsərini Rusiyanın Bonndakı baş konsulu Nyu-York sakinlərinə hədiyyə etmişdir. Hazırda Nyu-York muzeyində saxlanılan bu əsər tək elə sənət naminə işlənməyib; axı, bu sənətkarın ölkəsinin Qarabağ kimi böyük bir dərdi var! O, terrorizmin bəşəriyyəti hansı müsibətlərə düçar etdiyini yaxşı bilir və yeri gəldikcə qüdrətli fırçasını bu dəhşətli bəlaya qarşı yönəldir.

Qəlbi hər zaman Bakı ilə döyünən rəssam ölkəmizdə baş verən hadisələrin hər birinə həssaslıqla yanaşır, ölkəmizin mədəni və siyasi tarixində iz qoya biləsi bütün tədbirlərdə yaxından iştirak edir. Necə ki, o, "Bakı - 2015" İlk Avropa oyunlarını da kənardan müşahidə etmədi.



## "Cənub şəhər və adamları" haqda müəllif düşüncələri

Bakıda hündür, ekzotik məkanı xatırladan və sözün əsl mənasında art təəssürat yaradan "Art Villa" qalereyada Əşrəf Heybətovun "Cənub şəhər və insanlar" adlı sərgisi... Açılışa rəssamın dostları, onun sənətinin və ümumən sənətin vurğunları qatılmışdı.

Paytaxtımızda keçirilən ilk Avropa Oyunlarına həsr olunan "Arts Council Azerbaijan"ın təşkilatçılığı və "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının dəstəyi ilə təşkil edilən bu sərgi turistlərə və idmançılara Bakını tanımaq üçün daha bir şans yaratmış, Oyunlar ərəfəsi çox qısa bir müddətə doğma şəhərinə gəlmiş rəssamın yaxınları, dostları tanışları onu qəribə bir məhəbbət və maraqla əhatələmişdilər. Mehriban, səmimi və xüsusən dostcanlı olan Əşrəf Heybətov bu sərgi, habelə səfəri haqda danışmağı dostlarına həvalə etdi.







**Fuad Məmmədov, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının rəhbəri:** *"Bəli, ilk Avropa Oyunları bizim ölkədə keçirilir! Belə bir idman hadisəsi eyni zamanda mədəni tədbirlərin aktivliyinə də təsirsiz ötüşməyib. Bakıdan uzaqlarda yaşayan, lakin ürəyi Azərbaycanla döyünən hər bir vətəndaşımız əlamətdar günlərdə şəhərimizdə olmaq, öz töhfəsini vermək barədə düşünürdü. Belə insanlardan biri də dostum Əşrəf Heybətovdur. O, Azərbaycanı bütün dünyda təbliğ edir. Bu gün onun əsərlərinə diqqət etdikcə dünyəvi düşüncələrə qərq oluruq. Həm də gözlərimiz önündə Bakının tarixi keçmişi, görkəmli şəxsiyyətləri canlanır. Bu əsərlərdə Bakının ümumi koloriti, ictimai-siyasi-mədəni ab-havası əks olunub..."*

**Arif Hüseynov, Xalq rəssamı:** *"Bakı və onun insanlarından bəhs edən 30-a yaxın əsərin nümayiş olunduğu bu sərgidəki əsərlərə tamaşa etdikcə, rəssamın əbədi mövzulara özünəməxsus müraciəti, sevgi və sevincləri, xeyirlə şərin mübarizə - münasibəti məsələləri aydınca hiss olunur. Tamaşaçı burada ruhunu tərpədəcək çalarlar tapa bilir. Bu əsərlərin əksəriyyəti avtobioqrafik də sayıla bilər. İnsanın qaça bilmədiyi və həyatını təşkil edən acılı-şirinli yaşantılar... Bu sosial-psixoloji toplu və onun sirləri fırçanın rənglər dili ilə çatdırılıb. Rəssam özünü və ümumən bizi əhatə edən çox sadə və adi hadisələri sənətin gücü ilə gözəl açıqlayıb. Bu hisslər kətan üzərində çox cəlbedici olmaqla, həm də bu vaxta qədər görünməzliklərin göstərilməsi baxımından da düşündürücüdür. Yaddaşa müraciət, köhnə Bakı, şəhərin rəmzləri, tarixi abidələr rəssamın çoxsaylı əsərlərinin leytmotivini təşkil edir. Onun işlərinin əsas mövzusu Azərbaycan və xalqımızın adət-ənənələridir".*

***Gah sakit, gah səs-küylü sənət seyrçiləri, əsərləri müzakirə edən tamaşaçılar arasından, nəhayət ki, səbəbkarı tapıb, ona bir-iki sualla müraciət edirik.***

**- Əşrəf müəllim, deyirlər, Bakıda ildə bir neçə dəfə olursuz...**

- İldə 3-4 dəfə Bakıda oluram. Amma bu da məni qane etmir. Prezident İlham Əliyev mənə ev verdikdən sonra daha tez-tez gəlməyə cəhd edirəm. Buradan böyük ruh alıram. Dostlarla görüşürəm və bütün bunlar yaradıcılığıma da müsbət təsir göstərir. Şüvəlanda - dənizə yaxın ərazidə işləməyi, mənzərələr çəkməyi çox sevirəm. Avropa oyunları ərəfəsində isə, təbii, doğma vətənimdə mütləq olmalıydım. 1980-ci ildə Moskvada keçirilən Olimpiada ərəfəsində idman kompleksləri və müəyyən binaların üzərinə mozaikalar işləmişəmsə, indi - doğma, müstəqil vətənimdə keçirilən əlamətdar hadisədə iştirak etməyə bilərdimmi?! Bakıda olduğum müddətdə bu sərginin keçirilməsi təklifini aldım və sərgi artıq sizlərin ixtiyarındadır. Bütün gələn qonaqlara sonsuz təşəkkürümü bildirirəm.

**- Bilirəm ki, ictimai fəaliyyətlə də məşğulsunuz...**

- İctimai fəaliyyətdən əsas məqsədim Azərbaycana daha çox dost qazandırmaqdır. Bu, həm də mədəniyyət və incəsənətimizi dünyanın bir çox yerlərində tanıtmaq imkanımdır. Konfrans və simpoziumlar zamanı bu istəyimi həyata keçirməyə çalışıram. Dünya Şərqşünaslarının Konqresi kimi nüfuzlu tədbirlərdə mən tək elə Əşrəf Heybətov olaraq deyil, Azərbaycanı təmsil edən rəssam olaraq təqdim edilirəm. Əsərlərimdə Azərbaycanı tərənnüm etməyim isə çoxlarına bəllidir! Mənim silsilə rəsmlərimdə əks olunan Azərbaycan gözəlləri, milli geyimlərimiz və s. bütün dünyada sərgilənib. Bu, mənim vətənimə olan borcumdur. Hər birimiz təbliğat aparmalıyıq. Heydər Əliyev Fondunun dəstəyi ilə müasir Azərbaycan rəssamlarının işləri bütün dünyada təbliğ edilir.

Moskvada yaşadığı dövr rəssamın yaradıcılığında mühüm əhəmiyyət kəsb edib; zəngin mədəni mühitlə tanışlıq, ustad monumentalistlərdən aldığı dərslər Tahir Salahov, Çingiz Aytmatov kimi korifey, təvazökar, səmimi insanlara rast gəlməsi də onunçün əsl həyat məktəbi olub.

Əşrəf Heybətovun eskizləri əsasında Nepalda Tibet motivləri mövzusunda xalça toxunub. 2010-cu ildə Frankfurtda alman nağıllarına illüstrasiyaları və iki kitabı işıq üzü görüb. Bakıda "Şərq dünyası" adlı 100 əsərinin yer aldığı kataloq da maraqla qarşılanıb. Vatikanda Roma Papasının, Almaniyada kansler Angela Merkelin və başqalarının portretini işləyib. Amma rəssamın ən çox qürurlandığı ölkəmizin birinci xanımı Mehriban Əliyevanın portretidir. Fotoşəkil əsasında işlədiyi bu əsəri o, Mehriban xanıma Almaniyaya səfəri zamanı hədiyyə edib.



## Sərgilər... axtarışlar...

Bu ilin sonlarında Heydər Əliyev Mərkəzində rəssamın geniş sərgisi nəzərdə tutulub. 2016-cı ilin aprel ayında isə Moskvada - Şərq Xalqları Muzeyində "Türk dünyası" adlı sərgisi planlaşdırılıb. 2011-ci ildə baş tutan Moskvada "Bakı və bakılılar" adlı sərgidə nümayiş olunan bu dəfəki ekspozisiya əsərlərin kiçik bir hissəsini ehtiva edirdi. Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın diqqəti sayəsində təşkil edilən sərginin davamı Ankarada TÜRKSOY-un qərargahında da maraqla qarşılanıb.

2016-cı ildə 65 illik yubileyini qeyd edəcək Əşrəf Heybətova yaradıcılıq uğurları arzusu ilə...

Lalə Azəri